Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun 2009-cu ilin dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 96 saylı Goranboy-Naftalan seçki dairəsi üzrə Naftalan bələdiyyəsi üzvlüyünə namizəd oğlu Əliyev Yusif Teymur oğlunun və digərlərinin 24 dekabr 2009-cu il tarixli 98,99 saylı, 40 saylı MnSK-nın sədri Nuriyeva Zülfümar Ənvər qızının 2 yanvar 2010-cu il tarixli 366 saylı müraciəti üzrə

# R Ə Y İ

Bakı şəhəri                                        09 yanvar 2010-cu il saat 10 00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 96 saylı Goranboy – Naftalan seçki dairəsi üzrə Naftalan bələdiyyəsinin üzvlüyünə namizəd Əliyev Yusif Teymur oğlu və digərləri 2009-cu il dekabrın 24-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək Naftalan bələdiyyəsini əhatə edən seçki məntəqələrində səsvermə zamanı bir sıra qanun pozuntularına yol verildiyini, habelə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayevin, tabeliyində olan işçilərlə birlikdə sözügedən DSK-nın 39, 40 və 41 saylı seçki məntəqələrinə qanunsuz daxil olaraq səsvermə prosesinə kobud müdaxilə etməsini, bələdiyyə üzvlüyünə namizədlərin və seçicilərin sərbəst seçim hüququna təsir edib bir neçə müşahidəçini zorla seçki məntəqəsindən kənarlaşdırmasını bildirərək, qanuna müvafiq olaraq tədbirlərin görülməsini xahiş etmişlər.

40 saylı MnSK-nın sədri Nuriyeva Zülfümar Ənvər qızı isə müraciətində 23 dekabr 2009-cu il tarixli bələdiyyə seçkilərinə qanunsuz müdaxilənin şəhər icra hakimiyyətinin başçısı Musa Musayev tərəfindən deyil, əksinə bələdiyyə üzvülüyünə namizəd Zöhrab Adıgözəlov tərəfindən edilməsini bildirərək, qanuni tədbir görülməsini xahiş etmişdir.

Müraciətlərdə qeyd olunan məsələlərin araşdırılması və müvafiq rəy qəbul edilərək iclasa çıxarılması üçün qanunvericiliyklə müəyyən edilmiş 3 gün müddət kifayət etmədiyindən əlavə araşdırma aparılması məqsədilə göstərilən müddətin artırılması zəruriliyindən Mərkəzi Seçki Komissiyasının 24 dekabr 2009-cu il tarixli qərarı ilə araşdırılma müddəti artırılmışdır.

25 dekabr 2009-cu il tarixdə müraciətlərin yerində araşdırılması məqsədilə 96 saylı Goranboy-Naftalan dairə seçki komissiyasına mən və Katibliyin əməkdaşları Ə.Nəsirov və R.Abbasovla Goranboy rayonuna ezam olunduq.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq əlavə müraciət

etmiş şəxsləri 23 dekabr 2009-cu il tarixdə Naftalan bələdiyyəsi üzvülüyünə namizədlər Əliyev Yusif Teymur oğlunun, Adıgözəlov Zöhrab Məmməd oğlunun, Nəbizadə Əvəz Oruc oğlunun, Sadıqova Aminə İslam qızının, Ruzicəng Nərminə Eldar qızının, Şərifov Kamal Qəməd oğlunun, Arif Mehdi oğlu Məmmədovun, Namazov Xəyal Vahid oğlunun, Həsənov Niyaz Fərhad oğlunun, müşahidəçilər Zeynalov Rəşad Zülfi oğlu və Nəbizadə Nizami Möhsün oğlunun izahatları alınmış, yeni sənədlər və digər dəlillər təqdim etmək hüquqlarının olmaları izah edilmişdir.

İzahatlarında həmin şəxslər göstərmişlər ki, 23 dekabr 2009-cu il tarixdə səsvermə başlandıqdan sonra Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayev tabeliyində olan Faiq Kərimov, Əmiraslan Həsənovla birlikdə polis işçilərinin müşaiyəti ilə saat 8.10-8.20 radələrində 41 saylı, saat 8.40-8.50 radələrində 40 saylı, saat 9.00-9.10 radələrində 39 saylı seçki məntəqələrinə daxil olmuş seçkinin gedişi və müşahidəçilərin kimliyi ilə maraqlanmışdır. Musa Musayevə 41 saylı seçki məntəqəsində müşahidəçilər Əmir Həsənovu və Nofəl Qocayevi, 40 saylı məntəqədən Qoşqar Adıgözəlovu polis işçiləri vasitəsilə kənarlaşdırmışdır. 39 saylı seçki məntəqəsində isə Musa Musayev müşahidəçi Nəbizadə Nizamini "onu bura kim buraxıb, bunu buradan çıxarın" göstərişini verdiyi zaman onun mobil telefonuna zəng gəlmiş və əsəbi halda məntəqəni tərk etmişdir. Şəhər icra hakimiyyətinin başçısı Musa Musayevin seçki prosesinə müdaxiləsi, onun tabeliyində olan işçilərin seçki günü əlavə olaraq bir neçə dəfə seçki məntəqələrində olmaqla, məntəqə seçki komissiyasının sədrinə göstərişlər verməsi bələdiyyə seçkiləri zamanı seçicilərin, müşahidəçilərin və məntəqə seçki komissiyası üzvlərinin hüquqlarının pozulması, zorla kənarlaşdırılan müşahidəçilərin 20-30 dəqiqə səsverməni izləmək imkanlarından məhrum olması faktı təsdiq olunmuşdur. Həmin hadisəni araşdırmaya cəlb edilmiş müşahidəçilər Əmir Həsənovun, Nofəl Qocayevin, Qoşqar Adıgözəlovun, Əli Məmmədovun, Nizami Nəbizadənin, Rəşad Zeynalovun, 41 saylı MnSK-nın üzvü Azad Əliyevin ("Ana Vətən" Partiyası), 40 saylı MnSK-nın katibi (Sosial Rifah Partiyası), Rüstəmov Fuad Firudin oğlunun izahatları, araşdırma materiallarına əlavə edilmiş seçki günü qanun pozuntusu barədə aktlar, fotoşəkillər və digər sənədləri ilə bir daha öz təsdiqini tapmışdır.

41 saylı seçki məntəqəsinin sədri Nazlı Həsənova izahatında göstərmişdir ki, 23 dekabr 2009-cu il tarixdə daşınan və daşınmaz qutuları kilidləyən vaxtdan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayev seçki məntəqəsinə daxil olub səs verməyə gəldiyini bildirmişdir. Musa Musayevə izah edilmişdir ki, onun adı seçici siyahısında olmadığı üçün səs verə bilməyəcəkdir. Müşahidəçilərin sayının çox olmasını gördükdə isə icra başçısı onların "vəsiqələrini yoxlayıbsınızmı?" deyə soruşmuşdur. Müşahidəçilər yerlərdən hansı partiyanı təmsil etdiklərini söyləyiblər. Nofəl Qocayev və Əmir Həsənov Musa müəllimə cavab verməmiş və danışa-danışa bayıra çıxmışlar. Məntəqə seçki komissyasının sədri N.Həsənova izahatında həm də qeyd etmişdir ki, DSK sədri

Arif Abbasov mənə zəng edərək müşahidəçiləri nə üçün çölə çıxarılmasını soruşdu. Mən sonra komissiya üzvləri vasitəsilə onları yenidən məntəqəyə dəvət etdim. 15 dəqiqə müşahidəçilər məntəqədə olmamışlar.

Məntəqə sədri Nazlı Həsənova ona təqdim olunmuş fotoşəkilə baxdıqdan sonra izahatında göstərdi ki, səsvermə kabinəsinin qarşısında dayanan Naftalan şəhər icra aparatının baş məsləhətçi Faiq Kərimovu işıqlar söndüyü üçün ona zəng etdiyi, lakin o gələn zaman artıq işıqların yandığını deməklə narahatçılığın olmadığını bildirmişdir.

Komissiya üzvü Azad Alı oğlu Ağayev izahatında göstərmişdir ki, səhər saat 8.00-da komissiya üzvləri və müşahidəçilərin iştirakı ilə məntəqənin qapıları komissiya sədrinin göstərişi ilə açılmışdır. İş bölgüsünə əsasən məntəqədəki vəzifəsini yerinə yetirərkən, səsvermənin başlanmasından təqribən 20-25 dəqiqədən sonra Musa Musayev öz işçiləri ilə daxil olmuş, hamı ilə salamlaşmış, müşahidəçilərin hansı partiyanın xətti ilə gəlməsini soruşaraq, iki nəfərin sənədini aydınlaşdırmaq üçün polisin köməkliyi ilə seçki məntəqəsinin içərisindən kənarlaşdırmışdır. Bundan 5 dəqiqə sonra DSK sədri Arif Abbasov məntəqə sədrinə zəng etdikdən sonra, çölə çıxarılan müşahidəçilər yenidən məntəqəyə dəvət edilmişdir. Həmin müşahidəçilərin axtarılıb gətirilməsi təqribən 20-30 dəqiqə çəkmişdir.

Naftalan Şəhər İcra Hakimiyyətinin baş məsləhətçi Faiq Kərimov izahatında göstərmişdir ki, məntəqələrin texniki hazırlıq vəziyyətini öyrənmək üçün 41 saylı seçki məntəqələrində olmuşdur. Ona təqdim olan fotoşəkilə dair bildirmişdir ki, 41 saylı məntəqədə səsvermə kabinəsinin qarşısında dayanmış şəxs özüdür, seçki günü ərzində bir neçə dəfə məntəqələrdə olmaqla seçkinin qanuni keçirilməsinə nəzarət etməklə məntəqə sədrlərinə seçkinin düzgün aparılmasını və səsvermənin sonunda bu prosesin obyektiv keçirilməsi barədə akt tərtib edilməsini tapşırmışdır.

Bələdiyyə seçkilərində iştirak etmiş seçici Qocayev Anar Xudayət oğlu ona təqdim edilən fotoşəkilə dair izahatında göstərmişdir ki, 23 dekabr 2009-cu ildə günorta vaxtı saat 1.00–2.00 radələrində 41 saylı seçki məntəqəsində səs vermişdir. Şəkildəki şəxsi sonradan tanımışdır ki, şəhər icra hakimiyyətində işləyir, adı Faiq Kərimovdur. Həmin şəxs məntəqə sədri Nazlı müəllimə ilə danışırdı. Ancaq nədən söhbət etdiklərini o eşitməmişdir.

Bələdiyyə seçkilərində iştirak etmiş seçici Nəbiyeva Yəmən Həsənqulu qızı ona təqdim edilən fotoşəkilə dair izahatında göstərmişdir ki, səsvermə zamanı bülleten alarkən görüntüdə olan 2 oğlan da orada idi. Onlardan biri (icra hakimiyyətinin işçisi) 2№-li məktəbin direktoru Nazlı müəllimə ilə danışdı. Həmin şəxsin “Nazlı müəllimə işlər necədir?” sualına məntəqə sədri “hər şey qaydasındadır” cavabını vermişdir. Sonradan o səsvermədə iştirak etdiyi üçün onların başqa nədən danışıqlarını eşitməmişdir.

41 saylı seçki məntəqəsində saat 8.00-dan 19.00-a kimi müşahidəçi olmuş Həsənov Əmir Dəmir oğlu izahatında göstərmişdir ki, saat 8.10-da Naftalan

Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayev, məsul işçiləri Əmiraslan Həsənov və Faiq Kərimov üçüdə məntəqəyə daxil oldular. İcra başçısı polisə tapşırıq vermişdir ki, onu və digər müstəqil müşahidəçi Nofəl Qocayevi seçki məntəqəsindən çıxarsınlar. Kənarlaşdırıldıqdan sonra o lazımi şəxslərə zəng vurub xəbər vermişdir. 25-30 dəqiqədən sonra onlara yenidən müşahidə aparmağa şərait yaradılmışdır. Həmçinin o izahatında göstərmişdir ki, icra hakimiyyətinin işçisi Faiq Kərimov həmin günü bir neçə dəfə 41 saylı seçki məntəqəsində olaraq sədr Nazlı Həsənovaya göstəriş vermişdir.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayevin seçki günü səsvermə zamanı 41 saylı seçki məntəqəsinə gəlməklə müşahidəçilər Əmir Həsənovu və Nofəl Qocayevin onun göstərişi əsasında səsvermə otağından kənarlaşdırılması faktını 23 dekabr 2009-cu il tarixdə keçirilmiş seçkilər zamanı Naftalan şəhər bələdiyyəsinin üzvülüyünə namizədlər Yusif Əliyevin, Xəyal Namazovun və Zöhrab Adıgözəlovun izahatları ilə bir daha öz təsdiqini tapmışdır.

40 saylı MnSk-nın sədri Zülfümar Əvəz qızı Nuriyeva izahatında göstərmişdir ki, səsvermə günü dekabrın 23-də Naftalan şəhər icra aparatından, başda icra hakimiyyətinin başçısı Musa Musayev olmaqla seçki məntəqəsinə heç kəs gəlməmiş və mən onları görməmişəm. Polis işçiləri məntəqədən 100 metr aralıda dayanmışdılar. Onları bir neçə dəfə məntəqəyə dəvət etsə də akt tərtib olunmamışdır.

40 saylı MnSK-nın katibi Rüstəmov Fuad Firudin oğlu izahatında göstərmişdir ki, seçkinin öz qaydasında keçirildiyi zaman saat 9.00 radələrində Naftalan şəhər icra hakimiyyətinin başçısı Musa Musayev seçki məntəqəsinə gəlmiş, seçki məntəqəsinin üzvləri və müşahidəçilərlə salamlaşaraq onların hansı partiyadan olmalarını soruşmuşdur. Qoşqar Adıgözəlovun müstəqil müşahidəçi olduğunu biləndən sonra Musa Musayev polis əməkdaşlarına müraciət etdi ki, həmin müşahidəçini seçki məntəqəsindən çölə çıxarsınlar. Fuad Rüstəmov izahatında davam edərək göstərmişdir ki, seçki günü ərzində bir neçə dəfə icra hakimiyyətinin məsul işçiləri Faiq Kərimov, Əmiraslan Həsənovun seçki məntəqəsinə gəlmiş və sədr Zülfümar Nuriyeva ilə söhbət etmişlər. Səsvermə zamanı bülletenlər sayılarkən komissiya sədrinin səhhəti pisləşmiş, əvvəlcə polis, sonra isə təcili yardım çağırılmış, sayma prosesi 2 saata qədər dayanmaqla akt tərtib olunmuşdur.

40 saylı MnSK-da müşahidə aparmış Qoşqar Adıgözəlov izahatında göstərmişdir ki, seçki günü saat 8.30-da Naftalan şəhər icra hakimiyyətinin başçısı Musa Musayev məntəqəyə gəlmiş, müşahidəçiləri nəzərdən keçirdikdən sonra ona verilmiş “sən hansı namizədin müşahidəçisisən?” sualına “öz təşəbbüsümlə müşahidə edirəm” cavabını vermişdir. Musa Musayev isə bildirmişdir ki, “müstəqil müşahidəçi yoxdur, sən məntəqəni tərk etməlisən”. Müşahidəçi Q.Adıgözəlov məntəqəni tərk etmək istəmədikdə icra hakimiyyətinin məsul işçisi Əmiraslan Həsənov qapıdan polisləri çağıraraq onu kənarlaşdırmağı

tələb edilmişdir. Əks halda polislər vasitəsilə zor tətbiq olunacağını bildirmişdir. Belə olduğu halda o məntəqəni tərk etməklə DSK sədri Arif Abbasova zəng etmiş, hadisə barədə məlumat vermiş, daha sonra Arif Abbasovun təkidli tələbindən sonra məntəqəyə buraxılmışdır. İcra başçısı oranı tərk etdikdən sonra içəri daxil olmaq istəsə də, polislər "Musa müəllim razılıq verməyənə qədər içəri buraxa bilmərik" demişlər. Müşahidəçi izahatında icra hakimiyyəti işçilərinin həmin günü bir neçə dəfə seçki məntəqəsinə gəlməklə sədrə göstəriş verməlerini, Zülfümar Nuriyevanın səhhətinin pisləşməsi nəticəsində təcili yardım çağırılmasını, polislərin məntəqəyə daxil olmasını, onların 2 saat müddətində yenidən kənarlaşdırılması faktını da təsdiq etmişdi.

Qoşqar Adıgözəlov tərəfindən göstərilən bu faktlar 40 saylı MnSK-da müşahidə aparmış Əli Məmmədovun izahatında da öz təsdiqini tapmışdır. Səsvermə otağından Qoşqar Adıgözəlov kimi eyni qayda da uzaqlaşdırılan Əli Məmmədov icra başçısı getdikdən sonra qayıdaraq müşahidə aparmaq arzusunda olduğunu bildirsə də polislər onlara icazə verməmiş və "Musa müəllim razılıq verməyənə qədər içəri buraxa bilmərik" demişlər. Müşahidəçi Ə.Məmmədov səsvermə otağından zorla kənarlaşdırıldığına baxmayaraq səhər 8.00-dan onun məntəqəyə qayıtmasına qədər 14 nəfərin səsverməsi qeyd edilmişdir. Lakin onlar MnSK-ya daxil olduqda şəffaf seçki qutularını təxminən üçdə bir hissəsinin seçki bülletenləri ilə dolu olduğunu görmüşlər.

40 saylı MnSK-da seçki günü müşahidəçi olmuş Bəsti Ədilova, Məmləkət Aslanova, Aidə Talıbova eyni xarakterli və eyni məzmunlu izahatlar verərək göstərmişlər ki, 23 dekabr 2009-cu ildə 40 saylı məntəqədə seçkilər yüksək səviyyədə, qanunçuluğa əməl edilməklə keçirilmiş, şəhər icra hakimiyyətinin başçısı Musa Musayevi və icra hakimiyyəti işçiləri tərəfindən hər hansı bir müdaxilə olmamışdır.

Həmin günü 40 saylı MnSK-da seçkiləri müşahidə etmiş bələdiyyə üzvlüyünə namizədlər Zöhrab Adıgözəlov, Əzəv Nəbizadə, Arif Məmmədov izahatlarında göstərmişlər ki, 8.40–8.50 radələrində Naftalan şəhər icra hakimiyyətinin başçısı Musa Musayev tabeliyində olan işçiləri ilə səsvermə otağına daxil olmuş, komissiya üzvləri və müşahidəçilərlə maraqlanmış, Qoşqar Adıgözəlovu və Əli Məmmədovu polisə göstəriş verməklə kənarlaşdırmış, gün ərzində icra hakimiyyətinin məsul işçiləri bir neçə dəfə gələrək komissiya sədrinə göstərişlər vermiş, səslərin hesablanması zamanı Zülfüqar Nuriyevanın səhhəti pisləşdiyindən təcili yardımın həkimləri gəlmiş, səsvermə 2 saat dayanmışdır.

39 saylı məntəqə seçki komissiyasının sədri Qocayev Hətəm Əli oğlu izahatında göstərmişdir ki, səsvermə prosesi başlamamışdan (saat 7.10) Musa Musayev icra hakimiyyətinin gözətçisi polislə seçki məntəqəsinə gəlmişdir. Polis çöldə gözlədi. Seçki məntəqəsinin səsverməyə hazırlıq vəziyyətinə baxdı, müşahidəçilərlə qısa söhbət edərkən müşahidəçi Nizami Nəbizadənin lövhəciyinin gizləndiyini ona dedi və seçkinin demokratik keçməsini arzulayaraq çıxıb getdi.

Həmin seçki məntəqəsində müşahidə aparmış Nəbizadə Nizami Möhsüm oğlu izahatında göstərmişdir ki, saat 9.10-da şəhər icra hakimiyyətinin başçısı Musa Musayev tabeliyində olan işçiləri Fair Kərimov və Əmiraslan Həsənovla səsvermə otağına daxil oldu. Müşahidəçilərə diqqətlə baxdıqdan sonra ondan soruşmuşdur ki, sən burada nə gəzirsən? Sonra sinəmdən asılmış lövhəciyə baxaraq "Kim onu bura buraxıb, bunu buradan çıxarın" deyə polislərə göstəriş vermişdir. N.Nəbizadə etiraz edərək namizəd qardaşının xeyrinə müşahidə apardığını söyləmişdi. Bu an onun mobil telefonuna zəng gəlmiş və qısa danışıqdan sonra əsəbi halda məntəqəni tərk etmişdir.

Müşahidəçi Rəşad Zeynalov izahatında bildirmişdi ki, 15 dekabr 2009-cu il tarixdə 96 saylı Goranboy-Naftalan seçki dairəsində qeydiyyatdan keçmiş və ona 427 saylı müşahidəçi vəsiqəsi verilmişdir. O, səsvermə günü seçki məntəqəsi açılandan səsvermənin nəticələri elan olunanadək adı çəkilən seçki dairəsinin 39 saylı seçki məntəqəsində olmuşdur.

Onun sözlərinə görə, səsvermə başladıqdan sonra seçki normal qayda gedirdi. Saat 9.10 radələrində Naftalan İcra Hakimiyyətinin başçısı Musa Musayev məntəqəyə gələrək, orada oturmuş müşahidəçilərin kimliyi ilə maraqlanmış, onlardan yalnız iki nəfərə mənə və Nizami Nəbizadəyə etiraz edərək, həmin şəxslərin seçki məntəqəsindən uzaqlaşdırılmaları barədə göstəriş vermişdir. Bu zaman onun mobil telefonuna zəng gəlmiş və o, kiminləsə danışmış, sonra isə əsəbi halda seçki məntəqəsini tərk etmişdir.

R.Zeynalov izahatında onu da göstərmişdir ki, şəhər icra hakiniyyətinin məsul işçisi Faiq Kərimov bir neçə dəfə seçki məntəqəsinə gələrək, məntəqə seçki komissiyasının sədri Hətəm Qocayevlə təklikdə söhbət etmiş, hətta səsvermə başa çatana yaxın yenidən 39 saylı seçki məntəqəsinə gələrək, məntəqə seçki komissiyasının sədrinə səsvermənin demokratik, heç bir qanun pozuntusu olmadan keçməsi barədə akt tərtib edilməsinə göstəriş vermişdir.

Ərizəçi həmçinin rayon rəhbərliyi tərəfindən əvvəlcədən seçilməli olan bələdiyyə üzvlərinin siyahısının hazırlandığının və səsvermə günü həmin şəxslərin adı yazılmış vərəqlərin seçicilərə paylandığının şahidi olduğunu və bunun "Naftalan" qəzetinin baş redaktoru Qiyas müəllim tərəfindən həyata keçirildiyini bildirmişdir. O, bu məsələ ilə bağlı məntəqə seçki komissiyasının sədri Hətəm Qocayevə məlumat verdiyini, yalnız komissiya sədri işə müdaxilə etdikdən sonra onun həmin ərazini tərk etdiyini göstərmişdir.

Naftalan şəhər icra hakimiyyətinin baş memarı Əmiraslan Həsənov izahatlarında göstərmişdir ki, 39 saylı məntəqədə seçici kimi ailə üzvləri ilə birlikdə səs vermiş, icra hakimiyyətinin başçısı Musa Musayevlə birlikdə seçki məntəqəsində olmamış və seçki prosesinə hər hansı müdaxilə də iştirak etməmişdir. 40 saylı MnSK-nın həyətində dostu ilə birlikdə səsvermədən sonra 3 saat ərzində müşahidə aparan namizədlərdən birini gözləmişlər.

"Naftalan" qəzetinin redaktoru Qiyas Məmmədov izahatında göstərmişdir ki, seçilməsi nəzərdə tutulan 11 nəfərin adı gedən siyahıdan xəbəri yoxdur.

Həmin günü KİV işçisi kimi 39 saylı məntəqədən 50 metr uzaqda durub seçkiyə heç bir müdaxilə etməmişdir.

96 saylı Goranboy-Naftalan dairə seçki komissiyasının sədri Arif Abbasov izahatında göstərmişdir ki, 23 dekabr 2009-cu ildə saat 8.20-də Naftalan bələdiyyəsi üzvülüyünə namizəd Zöhrab Adıgözəlov telefonla zəng edib məlumat verdi ki, şəhər icra hakimiyyətinin başçısı Musa Musayev 41 saylı seçki məntəqəsinə gələrək kobud şəkildə məntəqədən müşahidəçiləri kənarlaşdırıb. DSK sədri dərhal şəhər icra hakimiyyətinin işçisi Faiq Kərimova zəng edib demişdir ki, icra strukturlarının seçkiyə müdaxiləsi qəti qadağandır, onlardan seçki məntəqəsini tərk etmələrini tapşırmışdır. Daha sonra 41 saylı MnSK sədrinə göstəriş vermişdir ki, kənarlaşdırılmış müşahidəçilər təcili məntəqəyə qayıtmalıdırlar. Daha sonra Qoşqar Adıgözəlov zəng edib 40 saylı MnSK-dan müşahidəçi kimi icra başçısı tərəfindən təhqir olunaraq zorla kənarlaşdırıldığını demişdir. Arif Abbasov təkrarən eyni qaydada icra hakimiyyətinin işçisi Faiq Kərimova zəng edərək "Musa Musayevə seçki komissiyasına daxil olub müdaxilə etməsin" deyərək növbəti tapşırığını vermişdir. O cümlədən 40 saylı MnSK-nın sədri Zülfünaz Nuriyevaya da zəng edib kənarlaşdırılmış müşahidəçilərin geri qaytarılmasını tapşırmışdır. Bir neçə dəqiqədən sonra Zöhrab Adıgözəlov növbəti dəfə zəng edib bildirmişdir ki, 39 saylı MnSK-da müşahidəçiləri kənarlaşdırmaq istədikdə onun telefonuna zəng gəlmiş, əsəbi halda məntəqəni tərk etmişdir.

Seçkinin nəticələrinə əsasən qalib gəlmiş namizədlərdən Anar Alıyev, Habil Abdullayev, Aysel Bayramova, Ömər Quliyev, Almaz Əliyeva, Zahid Əsədzadə 96 saylı DSK-nın inzibati binasına 25 dekabr 2009-cu ildə gələrək MSK-nın araşdırmanı aparan nümayəndələrinə bələdiyyə seçkilərinin çox demokratik, azad, ədalətli keçdiyini, səsvermə zamanı heç bir qanun pozuntusuna yol verilmədiyini bildirməklə araşdırmanın obyektiv aparılmasını xahiş etmişlər. (Protokol əlavə olunur)

Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə əsasən bəzi xüsusatları aydınlaşdırmaq məqsədilə və seçkidə baş vermiş qanun pozuntuları ilə əlaqədar Naftalan şəhər polis şöbəsinin bir neçə əməkdaşından izahat almaq zərurəti yaranmışdı. Lakin 2 dəfə DSK sədri Arif Abbasov vasitəsilə polis şöbəsinin rəisi polis polkovniki Hikmət Quliyevlə telefon əlaqəsi yaradıldı, ancaq o şöbənin əməkdaşlarından tərəfimizdən izahat alınmasına icazə verməkdən qəti imtina etdi. (Protokol əlavə olunur)

Rəvan Bədəlovun, Rüstəm Babayevin, Şahin Bağırovun və digər çox saylı seçicilərin izahatlarından da görünür ki, səs verərkən göstərilən hadisənin təsiri altında olmaqla öz iradələrini azad və sərbəst şəkildə ifadə edə bilməmişlər. Bəzi seçicilər isə məlum səbəbdən seçki məntəqələrinə gedib səs verməkdən imtina etmişlər.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayevin seçki prosesinə kobud müdaxilə etmək məqsədilə 96 saylı Goranboy-Naftalan seçki

dairəsinin 39, 40, 41 saylı məntəqələrinə tabeliyində olan işçilərlə birlikdə daxil olub bir neçə müşahidəçini zorla kənarlaşdırması və həmin müşahidəçilərin 20-30 dəqiqə səsverməni izləmək imkanlarından məhrum olmaları, eləcə də seçki günü baş vermiş digər qanunsuzluqlar barədə ciddi tədbir görülməsi məqsədilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr tarixli çoxsaylı müraciətlərin araşdırılması məqsədilə 26 dekabr 2009-cu ildə saat 15.30-da Naftalan Şəhər İcra Hakimiyyətində Musa Musayevlə görüşüb onun bu şikayətlərə dair münasibətini soruşduq.

Tərəfimizdən Musa Musayevə bildirildi ki, izahatı alınmış bir neçə şəxslər göstərmişlər ki, Musa Musayev 23 dekabr 2009-cu il tarixdə 39, 40, 41 saylı seçki məntəqələrində olmaqla bir neçə müşahidəçiləri kənarlaşdırmışdır. Şəhər İcra Hakimiyyətinin başçısı dedi ki, mən seçki günü saat 7.30-da 41 saylı seçki məntəqəsinə səs vermək üçün getmişdim. Orda məntəqə sədri Nazlı Həsənova məni səsvermədə iştirakımın mümkün olmamasını və bir nəfər müşahidəçinin vəsiqə göstərməməsini dedi. Mən də cavab verdim ki, seçki dairəsi ilə əlaqə saxlayın. Araşdırmanı aparan şəxslərin adından mən ona “axı siz bilirdinizmi səsvermə 8.00-da başlanır və adınız seçici siyahısında yoxdur? sualını verdikdə Musa Musayev belə cavablandırdı ki, “Elə bilirdim səs verə bilərəm, istədim ki, tez səs verib iş yerimdə olam”.

Daha sonra Musa Musayevin seçki günü seçki məntəqələrində işıq, qaz təchizində, nəqliyyat və rabitə xidmətlərində hər hansı bir problemin olub-olmamasını və bu məqsədlə icra hakimiyyətinə əlavə göstərişin olub-olmaması barədə soruşduqda o, heç bir problemin olmadığını və icra aparatının işçilərinə göstəriş vermədiyini bildirdi.

96 saylı Goranboy-Naftalan DSK-nın 26 dekabr 2009-cu il 71 saylı arayışından məlum olur ki, Naftalan şəhər icra hakimiyyətinin təsərrüfat şöbəsinin baş məsləhətçisi Faiq Kərimov adı həmin dairə üzrə Naftalan şəhərini əhatə edən 39, 40 və 41 saylı seçki məntəqələrinin seçki siyahısında qeyd olunmamışdır, 23 dekabr 2009-cu il bələdiyyə seçkilərində iştirak etməmişdir.

96 saylı Goranboy-Naftalan DSK-nın 26 dekabr 2009-cu il 72 saylı arayışından məlum olur ki, Naftalan şəhər icra hakimiyyətinin başçısı Musa Musayevin adı 96 saylı Goranboy-Naftalan seçki dairəsinin Naftalan şəhərini əhatə edən 39, 40 və 41 saylı seçki məntəqələrinin seçici siyahısında qeyd olunmamışdır, 23 dekabr 2009-cu il bələdiyyə seçkilərində iştirak etməmişdir.

96 saylı Goranboy-Naftalan DSK-nın 26 dekabr 2009-cu il 73 saylı arayışından məlum olur ki, Naftalan şəhər icra hakimiyyətinin baş memarı Əmiraslan Həsənovun adı 96 saylı Goranboy-Naftalan seçki dairəsinin Naftalan şəhərini əhatə edən 39 saylı seçki məntəqələrinin seçici siyahısına daxil edilmişdir, 23 dekabr 2009-cu il bələdiyyə seçkilərində iştirak etmişdir.

Toplanmış izahatlara və digər araşdırma materiallarına əsasən məlum olur ki, 23 dekabr 2009-cu il tarixdə səsvermə başlandıqdan sonra Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Musa Musayev tabeliyində olan işçiləri – Faiq

Kərimov və Əmiraslan Həsənovla birlikdə polis əməkdaşlarının müşaiyəti ilə, saat 8.10 – 8.20 radələrində 41 saylı, saat 8.40 – 8.50 radəsində 40 saylı, saat 9.00 – 9.10 radələrində 39 saylı seçki məntəqələrinə qanunsuz daxil olmuş, seçkinin gedişi və müşahidəçilərin kimliyi ilə maraqlanmış, 41 saylı seçki məntəqəsindən müşahidəçilər Əmir Həsənov və Nofəl Qocayevi, 40 saylı seçki məntəqəsindən Qoşqar Adıgözəlovu polis əməkdaşları vasitəsilə kənarlaşdırmış, 39 saylı seçki məntəqəsindən isə müşahidəçi Nizami Nəbizadəni kənarlaşdırmağa cəhd etmişdir. Bununla yanaşı, onun tabeliyində olan işçilərin seçki günü bir neçə dəfə seçki məntəqələrində olmaqla, məntəqə seçki komissiyalarının sədrlərinə göstərişlər vermələri də sübuta yetirilmişdir.

Seçki prosesinə qeyd olunan qanunsuz müdaxilənin baş verməsi bələdiyyə seçkiləri zamanı seçicilərin, müşahidəçilərin və məntəqə seçki komissiyası üzvlərinin hüquqlarının pozulması, zorla kənarlaşdırılan müşahidəçilərin 20 – 30 dəqiqə ərzində səsverməni izləmək imkanlarından məhrum olması faktları araşdırma materialları ilə tam sübuta yetirilməklə yanaşı, bir çox seçicilərin sərbəst, gizli və şəxsi səs verməklə seçki hüquqlarının təmin edilməsi, seçki komissiyalarının fəaliyyətində müstəqillik və aşkarlıq prinsiplərinə əməl edilməsi və seçkilərin gedişinə qanunsuz müdaxiləyə yol verilməməsinə dair Azərbaycan Respublikasının Konstitusiyasının 2-ci, 56-cı, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 2, 3, 4, 5, 6, 11-1, 40, 41, 42-ci maddələrinin, Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair 11 may 2005-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamının 2-ci bəndinin tələblərinin pozulmasına gətirib çıxarmışdır.

Beləliklə də, 96 saylı Naftalan – Goranboy seçki dairəsi üzrə Naftalan şəhər bələdiyyəsi üzrə seçkilərdə vətəndaşların iradəsini azad ifadə etmələrinə maneələr mövcud olmaqla onların seçki hüquqları tam həcmdə təmin edilmədiyindən, nəticədə seçkilərin yekunları müəyyən edilərkən seçicilərin iradəsini müəyyənləşdirmək qeyri-mümkün olduğundan, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 106.10, 240-cı maddələrinə əsasən seçkinin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 23.2-ci, 112-ci, 112-1-ci, 240-cı maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim :**

1. 96 saylı Naftalan-Goranboy seçki dairəsindən Naftalan bələdiyyəsinə namizədlər Əliyev Yusif Teymur oğlu və digərlərinin 24 dekabr 2009-cu il tarixli 98, 99 saylı müraciəti təmin edilsin.

2. 40 saylı MnSK-nın sədri Nuriyeva Zülfümar Ənvər qızının 2 yanvar 2010-cu il tarixli 366 saylı müraciəti təmin edilməsin.

3. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 240.2-ci maddəsinə əsasən Naftalan şəhər bələdiyyəsi üzrə seçkilər etibarsız sayılsın.

4. Rəy 24 saat müddətində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov